*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 12 dekabr 2015-ci il | № 95 (2011) | Qiyməti 25 qəpik


## Rəsmi xronika

***✓Çin Xalq Respublikasında rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 9-da Sian şəhərindən paytaxt Pekinə gəlib.***

***

***✓Prezident İlham Əliyev dekabrın 10-da Pekində Ümumçin Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsinin sədri (parlament sədri) Can Decian ilə görüşüb.***

***Prezident İlham Əliyevi ölkəsində salamlayan Can Decian Azərbaycan Prezidentinin Çinə dövlət səfərinə böyük əhəmiyyət verildiyini dedi, bu səfərin gələcək əməkdaşlığın daha da genişləndirilməsinə töhfə verəcəyini bildirdi. Ölkələrimiz arasında qarşılıqlı etimadın mövcudluğunu, mühüm məsələlərdə Azərbaycanın və Çinin hər zaman bir-birinin yanında olduqlarını deyən parlamentin sədri Çinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın suverenliyi və ərazi bütövlüyü çərçivəsində həllinə dəstək verdiyini bildirdi.***

***

***✓Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dekabrın 10-da Çin Xalq Respublikası Dövlət Şurasının Baş naziri Li Keçyan ilə görüşü olub.***

***Dövlət Şurasının Baş naziri Li Keçyan Azərbaycan Prezidenti İlham Əliyevi Çində görməkdən məmnun olduğunu dedi. O, ölkələrimiz arasında diplomatik münasibətlər yaranandan ikitərəfli əlaqələrimizin inkişaf etdiyini və bu səfərin də əməkdaşlığın genişlənməsinə yeni təkan verəcəyini vurğuladı.***

***Prezident İlham Əliyev əmin olduğunu bildirdi ki, Çinə dövlət səfərinin nəticələri ölkələrimizi bir-birinə daha da yaxınlaşdıracaq. Azərbaycanın Çin ilə əməkdaşlığa böyük önəm verdiyini deyən dövlətimizin başçısı ölkələrimiz arasında fəal siyasi əlaqələrin olduğunu, beynəlxalq təşkilatlarda uğurla əməkdaşlıq edildiyini diqqətə çatdırdı.***

***

***✓Dekabrın 10-da rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Çin Xalq Respublikasının Sədri Si Cinpinin geniş tərkibdə görüşü olub.***

***Dövlət başçıları görüşdə çıxış ediblər.***

***Çin Xalq Respublikasının Sədri Si Cinpin Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə sabitliyin möhkəmləndiyini, iqtisadi inkişafın artdığını, əhalinin rifah halının yaxşılaşdığını dedi. Azərbaycanın beynəlxalq nüfuzunun yüksəldiyini bildirən Çin Xalq Respublikasının Sədri ölkəmizin birinci Avropa Oyunlarını yüksək səviyyədə keçirdiyini qeyd etdi. Azərbaycanın ərazi bütövlüyünün bərpası, müstəqilliyinin və suverenliyinin möhkəmləndirilməsi istiqamətində səylərini bundan sonra da dəstəkləyəcəyini vurğuladı.***

***Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan Prezident İlham Əliyev dövlət başçıları tərəfindən imzalanacaq Birgə Bəyannamədə bu problemin Azərbaycanın suverenliyi, ərazi bütövlüyü əsasında həll edilməsinin əksini tapmasının önəmli olduğunu vurğuladı. Terrorizm, təcavüzkar separatizm, ekstremizm kimi təhlükələrlə mübarizədə ölkələrimizin hüquq mühafizə orqanları arasında əməkdaşlığın önəmini qeyd edən dövlətimizin başçısı Çin şirkətlərinin Azərbaycanda energetika sektorunda fəaliyyət göstərdiyini, ölkəmizin informasiya-kommunikasiya sahəsində əməkdaşlığın daha da genişləndirilməsində maraqlı olduğunu vurğuladı.***

***Görüş başa çatdıqdan sonra Azərbaycan-Çin sənədlərinin imzalanması mərasimi olub.***

***

***✓Dekabrın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Pekində Xalq Qəhrəmanları Abidəsini ziyarət edib.***

***

***✓Çin Xalq Respublikasında dövlət səfərində olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə dekabrın 11-də Renmin Universitetinin "Tarix üzrə fəxri professor" diplomunun təqdim edilməsi mərasimi keçirilib.***

***

***✓Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasına dövlət səfəri dekabrın 11-də başa çatıb.***

**AZƏRTAC-ın materialları əsasında**

# Vətənə sədaqət nümunəsi

## Ümummilli liderimizin mənalı ömür yolu ən layiqli örnəkdir

***Zamanın sınağından çıxan tarixi şəxsiyyətlər təmsil etdikləri millətin və dövlətin taleyində mühüm rol oynayıblar. Hər bir ölkənin inkişafında, dünyaya tanıdılmasında öz xalqına xidməti ömrünün mənası sayan belə şəxsiyyətlərin rolu danılmazdır.***

Ulu öndər Heydər Əliyevi nadir dövlət xadimi edən, onu ucalara qaldıran ən başlıca amillərdən biri onun öz xalqına, millətinə qırılmaz tellərlə bağlılığı idi. Heç zaman xalqından ayrı düşmədi, yaxşı-yaman günündə milləti ilə birgə oldu və bütün şərəfli ömrünü xalqına həsr etdi. Heç vaxt yorulub usanmadı, xalqına namuslu xidməti hər şeydən üstün tutdu. Beləliklə, güclü və yenilməz bir dövlət qurdu.

Ötən əsrin 70-ci illərindən etibarən Azərbaycanın qazandığı bütün tarixi nailiyyətlər məhz ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Sovetlər dövründə, daha dəqiq olaraq 1969-cu ildən 1982-ci ilə qədər olan bir zamanda dahi rəhbərimizin misilsiz xidmətləri sayəsində respublika iqtisadi inkişaf yoluna çıxa bildi. Yeni fabrik və zavodlar tikildi, güclü sənaye potensialı yaradıldı, yollar salındı və kənd təsərrüfatı bütün bölgələrimizdə inkişaf etdirildi.

Dəfələrlə qeyd etdiyimiz kimi, hələ Sovetlər dövründə Azərbaycanda hərbi ənənələrin inkişaf etdirilməsi, gənc nəslin hərbə marağının yüksəldilməsi məqsədilə aparılmış bütün önəmli



islahatların müəllifi yalnız böyük öndərimiz Heydər Əliyevdir. Ölkəmizin müstəqillik dönəmində Silahlı Qüvvələrimizin yaradılması zərurəti ortalığa çıxanda, bu islahatların nə qədər uzaqgörənliyin nəticəsi olduğu özünü sübuta yetirdi.

Ümumiyyətlə, dahi rəhbərin öz xalqı qarşısındakı xidmətlərini saymaqla qurtarmaq bilmir. Zənnimcə, onun ən böyük xidmətlərindən biri də ikinci dəfə siyasi hakimiyyətə qayıdışı ilə yerinə yetirdiyi xilaskarlıq missiyası idi. Müstəqilliyinin ilk illərində Azərbaycanın baş üzərini almış təhlükə dərinləşirdi, ölkə xarici və daxili qüvvələrin təsiri ilə parçalanmaq təhlükəsiylə üzləşmişdi. Bu zaman xalqımız öz taleyinin təminatını böyük şəxsiyyət, görkəmli ictimai-siyasi xadim Heydər Əliyevdə gördü. Xalq ayağa qalxdı, onu təkidlə ölkə rəhbərliyinə dəvət etdi. Məhz belə bir mürəkkəb şəraitdə, "Mən ömrümün qalan hissəsini də xalqıma bağışlayıram" deyən müdrik siyasətçi Azərbaycan dövlətinin sükanı arxasına keçərək canından artıq sevdiyi doğma xalqını bütün təhlükələrdən qurtara bildi.

İlk müstəqillik illərində ordu quruculuğunda xidmətləri olmuş təcrübəli hərbçilər qətiyyətli sərkərdə olan ümummilli liderimizin təşkilatçılığı ilə ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsi üçün həyata keçirilmiş mühüm islahatlardan iftixarla söhbət açırlar. Əvvəla qeyd etməyi lazım bilirəm ki, belə vətənpərvər, intizamlı zabitlərin əksəriyyəti məhz ulu öndər tərəfindən yaradılmış indiki C.Naxçıvanski adına Hərbi Liseyin yetirmələri idi. Qüdrətli dövlət xadiminin tükənməz enerjisi və idarəçilik imkanları sayəsində az bir zaman məsafəsində Azərbaycan vahid komandanlıqdan idarə edilən nizami ordusunu yaratmağa imkan tapdı. Bütün bunlar isə işğala son qoydu, təcavüzkar Ermənistanın hərbi birləşmələri geri çəkildi və atəşkəs haqqında saziş imzalandı. Əslində belə bir sülhün imzalanması gənc Azərbaycan dövləti üçün olduqca zəruri addım idi, çünki ölkəmiz hələ iqtisadi potensialını yaratmağa imkan tapmamışdı.

1994-cü ilin 20 sentyabrında ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə "Əsrin müqaviləsi" adlanan nəhəng neft sazişinin imzalanması ölkəmizdə iqtisadi inkişaf strategiyasının bünövrəsini yaratdı. Bununla da müstəqil Azərbaycan mühüm iqtisadi layihələrdə fəal iştirakçıya çevrildi və nüfuzlu dövlətlərin marağını özünə cəlb etdi. Dahi rəhbər daim qeyd edirdi ki, hər bir dövlətin güc sahibinə çevrilməsində iqtisadi amil mühüm əhəmiyyət kəsb edir. Yəni iqtisadiyyatı güclü olan dövlətin hərtərəfli inkişafına zəmin yaranır. Tezliklə ölkəmizin bütün sahələrində, o cümlədən ordu quruculuğu istiqamətində sürətli inkişafa geniş imkanlar açıldı və Azərbaycan Cənubi Qafqazın qüdrətli dövləti kimi tanındı.

Bu gün ümummilli liderimiz haqqında danışarkən tam haqlı olaraq onun fəaliyyətini ümumiləşdirən bir cümlə işlədirik: Heydər Əliyev Azərbaycan dövlətinin memarı və qurucusudur. Bəli, bu inkaredilməz həqiqətdir. Bugünkü Azərbaycan, dövlətçiliyimiz, müstəqilliyimiz məhz dahi rəhbərin adı ilə bağlıdır, onun müdrik siyasətinin, yorulmaz fəaliyyətinin məhsuludur. Mənsub olduğu xalqına layiqincə xidmət etmək, rəhbərlik etdiyi dövləti dünya miqyasında tanıtmaq bu tarixi şəxsiyyətin əsas məqsədi olub. Tam əminliyi ilə deməyi özümə borc bilirəm ki, dahi rəhbərin keçdiyi möhtəşəm ömür yolu, xalqının yolunda göstərdiyi misilsiz xidmətlər bizim üçün, gələcək nəsillər üçün Vətənə sədaqətin əsl nümunəsidir.

**"Azərbaycan Ordusu"**

## Vaşinqtonda erməni işğalına qarşı etiraz aksiyası

Dekabrın 9-da ABŞ Konqresinin "Reybern" binasında ermənilərin ənənəvi illik şousu keçirilib: onlar qondarma Dağlıq Qarabağın qondarma müstəqillik gününü qeyd ediblər. Tədbir Xankəndidəki oyuncaq rejimin oyuncaq ofisi, Amerika Erməni Assambleyası (AEA), öz büdcəsini ABŞ erməni icmasının hesabına dolduran Amerika Erməni Milli Komitəsi (AEMK), əslində özü müstəqil dövlət olmayan Ermənistan respublikasının ABŞ-dakı səfirliyi kimi qarşılıqlı əlaqəli strukturlar şəbəkəsi tərəfindən təşkil edilib.

Oyuncaq rejimin "şərəfinə" yığıncaqla eyni vaxtda "Reybern" binasının qarşısında ABŞ Azərbaycanlılar Şəbəkəsi tərəfindən təşkil olunmuş etiraz aksiyası keçirilirdi. Bu aksiyada Vaşinqtonun və ətraf rayonların Azərbaycan icmasının üzvləri, habelə erməni təcavüzünü pisləyən amerikalılar və digər millətlərin nümayəndələri iştirak edirdi. Nümayişçilərin əllərində tutduğu plakatlarda Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə bağlı faktlar, Azərbaycan ərazilərinin işğal edilməsinin nəticələri, Ermənistanın vassallığı və onun müstəqil siyasi kursunun olmaması, Xocalı qırğını, BMT Təhlükəsizlik Şurasının qətnamələri barədə məlumatlar aksiyaya qoşulanların və ABŞ Konqresinin üzvlərinin diqqətinə çatdırılıb.

ABŞ Azərbaycanlılar Şəbəkəsinin həmtəsisçisi Bədir Məmmədli etiraz aksiyasının əhəmiyyətini vurğulayaraq qeyd edib ki, Azərbaycan ərazilərinin işğal olunmasının erməni lobbisi tərəfindən bayram edilməsi ilə əlaqədar, "ABŞ Azərbaycanlılar Şəbəkəsi" təşkilatı bizim icmanın üzvlərini Konqresin binası qarşısında toplayaraq öz etirazını bildirməyi, ABŞ qanunvericilərini və onların nümayəndələrini Azərbaycan ərazilərinin işğal edilməsi barədə məlumatlandırmağı, amerikalı siyasətçiləri Ermənistan tərəfindən beynəlxalq hüququn pozulmasını pisləməyə çağırmağı qərara alıb.

ABŞ Konqresində Azərbaycan kokusunun həmtəsisçisi, keçmiş konqresmen Solomon Ortiz bu tədbirə əhəmiyyət verməməyə çağırıb. O deyib: "Burada Azərbaycan ərazilərinin qaytarılması məsələsində onu dəstəkləyən xeyli insan görməyə şadam. Bu torpaqlar erməni silahlı qüvvələri tərəfindən neçə ildir ki, işğal edilib, hərçənd, BMT Təhlükəsizlik Şurası Azərbaycanın ərazi bütövlüyünü təsdiq edən dörd qətnamə qəbul edib. "Reybern" binasında keçirilən tədbirə gəldikdə isə, bu, sadəcə ona görə mümkün olub ki, ABŞ azad ölkədir. Lakin bu heç də o demək deyil ki, Konqres və ya Dövlət Departamenti Azərbaycan ərazilərinin işğalı məsələsində erməniləri dəstəkləyir. ABŞ Konqresi bu tədbiri dəstəkləmir və Konqres üzvləri başa düşürlər ki, Azərbaycanın torpaqları işğal edilib. BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinin hamısı yerinə yetirilməli, işğal edilmiş torpaqlar Azərbaycana qaytarılmalıdır. Ona görə də bu tədbir hər il keçirilən adi təbliğatdır. Burada heç bir ciddi məsələ yoxdur".

**AZƏRTAC-ın materialları əsasında**

## Azərbaycanın Fransadakı səfirliyi Dağlıq Qarabağda yaradılmış qondarma rejimin bu ölkənin bəzi vilayətləri və şəhərləri ilə əməkdaşlığının ləğvi istiqamətində səylərini davam etdirir

***Azərbaycanın Fransadakı səfirliyi Ermənistan tərəfindən işğal edilmiş ərazilərimizdə yaradılmış qondarma rejimin Fransanın bəzi vilayətləri və şəhərləri ilə imzaladığı qeyri-qanuni dostluq və əməkdaşlıq xartiyalarının ləğvi istiqamətində səylərini davam etdirir.***

Səfirlik bu məsələnin hüquqi yolla həll edilməsi məqsədilə müvafiq sahədə ixtisaslaşmış vəkillər vasitəsilə Azərbaycanın işğal altında olan şəhərləri ilə qeyri-qanuni sənədlər imzalamış Fransa şəhərlərinin yerləşdiyi vilayətlərdə mərkəzi hökuməti təmsil edən prefektlərə sorğular göndərib. Fransız qanunvericiliyinə əsaslanan həmin sorğularda imzalanmış qeyri-qanuni sənədlərin ləğv edilməsi məqsədilə onların inzibati məhkəməyə təqdim edilməsi istənilib.

Azərbaycanın işğal altında olan Xankəndi şəhəri ilə qeyri-qanuni sənəd imzalamış Valans şəhərinin yerləşdiyi Drom vilayətinin prefekti Didye Loqa Azərbaycan səfirliyinin vəkilinin müraciətini cavablandıraraq, imzalanmış hər hansı bir sənədin Fransanın "Yerli özünüidarəetmə orqanları haqqında"Məcəlləsinin müddəalarına uyğun olaraq dövlət nümayəndəsinə, yəni prefektə təqdim olunduqdan sonra qüvvəyə mindiyini bildirib.

Prefekt "Valans və Stepanakert şəhərləri arasında dostluq xartiyası"nın və ya onun imzalanmasına icazə verən hər hansı məlumatın ona təqdim edilmədiyini vurğulayaraq, həmin xartiyanın qüvvəyə minmədiyini və onun icra olunmasının mümkünsüzlüyünü vurğulayıb.

Prefekt, həmçinin Valans şəhəri tərəfindən sözügedən "dostluq xartiyası" və ya ondan irəli gələn hər hansı sənədin ona təqdim ediləcəyi təqdirdə həmin sənədi ləğv edilməsi üçün dərhal inzibati məhkəməyə təqdim edəcəyini vəd edib.

**AZƏRTAC**

# Müdafiə naziri Koreyanın ölkəmizdəki səfiri ilə görüşüb



*Dekabrın 9-da Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Koreya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Kim Çanq-Qyu ilə görüşüb.*

Səfiri ölkəmizdə diplomatik fəaliyyətə başlaması münasibətilə təbrik edən nazir ona Azərbaycan ilə Koreya arasında əməkdaşlığın genişləndirilməsi istiqamətində uğurlar arzulayıb.

Azərbaycan-Koreya münasibətlərinin inkişafında dövlət başçılarının rolunun xüsusi qeyd edildiyi görüşdə bütün istiqamətlərdə olduğu kimi, hərbi sahədə də münasibətlərin uğurla davam etdiyi vurğulanıb.

Söhbət zamanı hərbi, hərbi-texniki və hərbi təhsil sahələrində əməkdaşlıqdan məmnunluq ifadə edilib, əlaqələrin inkişaf perspektivləri barədə ətraflı fikir mübadiləsi aparılıb.

Koreyalı səfir Azərbaycandakı diplomatik fəaliyyəti dövründə ölkələrimiz arasında əlaqələrin daha da inkişaf etdirilməsi üçün səylərini əsirgəməyəcəyini vurğulayıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Müdafiə naziri Birləşmiş Ərəb Əmirliklərinin ölkəmizdəki səfiri ilə görüşüb



***Dekabrın 9-da Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Birləşmiş Ərəb Əmirliklərinin ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Məhammad Ahmed Hamel Al Qubaisi ilə görüşüb.***

Görüşdə regiondakı hərbi-siyasi vəziyyət, hərbi sahədə əməkdaşlığın perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

Azərbaycanda səfir olmağından məmnunluğunu ifadə edən diplomat ölkələrimiz arasında münasibətlərin bütün sahələrdə inkişaf etdirilməsi naminə səylərini əsirgəməyəcəyini vurğulayıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Dahi rəhbərin ideyaları əbədi yaşayacaqdır

***Azərbaycan xalqının tarixində şərəfli və layiqli yeri olan dahilər, bacarıqlı sərkərdələr, dövlət xadimləri çox olub. Onların xalqımız üçün misilsiz xidmətləri heç vaxt unudulmur. Xalq öz böyük oğullarını zaman-zaman xatırlayır, yad edir. Bütün həyatını Azərbaycan xalqının və dövlətçiliyimizin taleyi ilə bağlayan, yüksək insani keyfiyyətlərə, dövləti idarə etmək bacarığına malik olan Heydər Əliyev bənzərsiz və müqayisəedilməz nadir şəxsiyyət idi.***

XX yüzillikdə xalqımızın böyük və nəhəng tarixi şəxsiyyətlərlərindən olan ümummilli liderimiz Heydər Əliyevin adı Azərbaycan tarixinin səhifələrinə böyük hərflərlə yazılıb. Dünyada elə müdrik, elə uzaqgörən dövlət xadimləri olublar ki, onlar öz ölkəsinin və millətinin taleyində mühüm rol oynayıblar. Müstəqil Azərbaycanın memarı olan ümummilli liderimiz Heydər Əliyev də tarixdə dərin iz qoymuş dahi şəxsiyyətlərdən biridir. O, tariximizə Azərbaycan dövlətinin qurucusu və banisi kimi daxil olub. Ulu öndərimiz ən mürəkkəb və ən çətin vəziyyətlərdən düzgün yol tapmağı bacarırdı. Onu uca zirvələrə qaldıran, lider səviyyəsinə yüksəldən ən yüksək və ali keyfiyyətlərdən birincisi doğma xalqına bağlılığı və inamı idi. Xalq da öz liderinə sadiq idi, ona inanırdı, onu özünə mayak sanırdı.

1971-ci ildə məhz ulu öndər Heydər Əliyevin təşəbbüsü, zəhməti və uzaqgörənliyi sayəsində Azərbaycanda xüsusi təyinatlı hərbi məktəb - indiki C.Naxçıvanski adına Hərbi Lisey yaradıldı. Burada yüzlərlə, minlərlə azərbaycanlı övladı oxudu. Silahlı Qüvvələrimizin formalaşmasında onların müstəsna rolu vardır.

Ötən əsrin yetmişinci illərindən Azərbaycana rəhbərlik edən ümummilli liderimiz Heydər Əliyevin yüksək təşəbbüskarlığı, müdrik siyasəti, səy və bacarığı sayəsində ölkəmiz, sözün həqiqi mənasında, intibah dövrünü yaşamışdır. Həmin illər Azərbaycanın yüksəliş dövrü idi. Bu o vaxtlar idi ki, Azərbaycan Respublikası keçmiş Sovetlər Birliyinin tərkibində birbaşa Moskvadan idarə olunurdu. Lakin Heydər Əliyev ölkəmizin inkişafı naminə böyük çətinliklərlə də olsa, mərkəzin diqqətini, qayğısını ölkəmizə yönəldə bilmişdi. Bu gün adi hal kimi qiymətləndirdiyimiz hər bir addımı o illərdə atmaq sarsılmaz iradə, qətiyyət və cəsarət tələb edirdi.

Ötən əsrin doxsanıncı illərində müstəqillik qazanmış Azərbaycan dövləti daxili və xarici təxribatların təsirindən dünyanın siyasi xəritəsindən silinmək təhlükəsi ilə üz-üzə qaldı. Zaman tələb edirdi ki, xalqı bu fəlakətdən qurtarmağa qadir olan bir şəxsiyyət hakimiyyətə gəlsin. Məhz ölkəmiz, Vətənimiz üçün belə çətin və keşməkeşli bir zamanda vətəndaşların təkidi ilə ümummilli liderimiz Heydər Əliyev yenidən hakimiyyətə qayıtdı. Bununla da dövlətçiliyimiz təhlükədən xilas oldu. Heyrətamiz iradə, qətiyyət, güc nümayiş etdirən ümummilli liderimiz ölkəni düşdüyü fəlakətdən qurtarmağa müvəffəq oldu. Onun rəhbərliyi ilə həyata keçirilən bu islahatlar sayəsində qısa müddət ərzində ölkəmizin həyatının bütün sahələrində dönüş yarandı. İstər hüquqi dövlət quruculuğu iqtisadiyyatın dirçəldilməsi yolunda, istərsə də cəmiyyətdə kütləvi xarakter almış cinayət hallarının qarşısının alınmasına və həmçinin, ən başlıcası ordu quruculuğu istiqamətində çox inamlı addımlar atılmağa başlandı.

1994-cü il mayın 12-də Ermənistan-Azərbaycan hərbi münaqişəsində atəşkəs elan olunduqdan sonra Azərbaycanda ordu quruculuğu da sürətləndi. Uğurla həyata keçirilən islahatlar nəticəsində Silahlı Qüvvələrin maddi-texniki təminatı getdikcə yaxşılaşdı, şəxsi heyətin mənəvi-psixoloji hazırlığı daha da artdı, döyüş ruhu, döyüş əzmi yüksəldi. Bu gün tam inamla demək olar ki, muasir müstəqil dövlətimizin memarı və qurucusu olan ulu öndər Heydər Əliyev həm də qüdrətli Azərbaycan Ordusunun yaradıcısıdır.

2003-cü il oktyabrın 15-də xalqın böyük dəstəyi ilə İlham Əliyev Prezident seçildi. Təcrübəli siyasi liderin rəhbərliyi altında həyatımızın bütün sahələrində önəmli islahatlar həyata keçirilir. Ulu öndərin siyasi kursu uğurla davam etdirilir. Bu gün Azərbaycan böyük inamla dünyanın ən inkişaf etmiş ölkələri ilə yanaşı addımlayır. Üçrəngli bayrağımız dünyanın mötəbər təşkilatlarının qarşısında əzəmətlə dalğalanır.

Ümummilli liderimiz Heydər Əliyevin dövlət quruculuğu, ordu quruculuğu, iqtisadi islahatlar, milli şüurun dirçəlişi, ideologiyamızın inkişafı və formalaşması, gənclərimizin hərbi vətənpərvərlik tərbiyəsi və digər sahələrdəki siyasi irsi bu gün elm ocaqlarında dərindən öyrənilir və təbliğ olunur. Dahi rəhbərin həyat yolu və siyasi fəaliyyəti hər bir Azərbaycan vətəndaşı üçün örnək və nümunə məktəbidir.

Tariximizin ən çətin və keşməkeşli dönəmlərində xalqımızın nicatı, qurtuluşu və xoşbəxt gələcəyi naminə böyük siyasət meydanına atılan ulu öndərimiz Heydər Əliyevin adı və ideyaları əbədi yaşayacaqdır.

**Ədliyyə kapitanı Amid VERDİYEV, Füzuli hərbi prokurorluğu**

# Kadrlarla iş üzrə cavabdeh zabitlərin toplantısı keçirilib

***Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində Müdafiə Nazirliyi Şəxsi Heyət Baş İdarəsi tərəfindən tabelikdə olan idarə və təşkilatlar üzrə kadrlarla aparılmış işlərin yekunu və növbəti ildə qarşıda duran vəzifələrə dair toplantı keçirilib.***

Tədbirdə çıxış edən Müdafiə nazirinin şəxsi heyət üzrə müavini general-leytenant Kərim Vəliyev Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tövsiyə və tapşırıqlarını toplantı iştirakçılarına çatdıraraq kadrlarla işə cavabdeh zabitlərin üzərinə düşən vəzifələri xüsusi qeyd edib.

Hərbi qulluqçuların vəzifələrə təyin edilməsində işgüzar keyfiyyətlərlə yanaşı, onların mənəvi-psixoloji hazırlığı, nizam-intizamının nəzərə alınmasının vacibliyi vurğulanıb, 2016-cı ildən hərbi qulluqçuların attestasiyası ilə bağlı yeni qaydaların tətbiq olunacağı diqqətə çatdırılıb.

Toplantıda il ərzində əsas komanda-qərargah vəzifələrinin peşəkar, ali hərbi təhsilli, mənəvi, fiziki və psixoloji cəhətdən hazırlıqlı, müəyyən döyüş təcrübəsi toplamış zabitlərlə komplektləşdirilməsi sahəsində görülən işlər diqqətə çatdırılıb. Silahlı Qüvvələrdə həqiqi hərbi xidmət keçən peşəkar zabitlərin fəaliyyətinin keyfiyyətcə artırıldığı önə çəkilib. Bildirilib ki, hərbi xidmətə cəlb ediləcək ixtisaslı gənclərlə bağlaşmadan qabaq onların bilik və bacarıqları, mənəvi keyfiyyətləri nəzərə alınacaq və belə zabitlərlə işin keyfiyyətinə diqqət artırılacaq.

Sonda tapşırıqların yerinə yetirilməsində nailiyyətlər əldə etmiş bir qrup hərbi qulluqçu mükafatlandırılıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**



# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Ermənistan Silahlı Qüvvələrinin növbəti pilotsuz uçan aparatı məhv edilib

Dekabrın 9-da saat 9.00 radələrində Tərtər rayonu istiqamətində Silahlı Qüvvələrimizin mövqeləri üzərində uçuşlar həyata keçirməyə cəhd göstərən Ermənistan Silahlı Qüvvələrinə məxsus növbəti DJI Inspire 1 (Quadcopter) tipli pilotsuz uçan aparat (PUA) bölmələrimizin sayıqlığı nəticəsində vaxtında aşkar olunaraq açılan atəş nəticəsində məhv edilib.

### Ermənistan silahlı qüvvələri yaşayış məntəqələrimizi atəşə tutub

Dekabrın 9-da qoşunların təmas xəttində Ermənistan silahlı qüvvələrinin bölmələri yaşayış məntəqələrimizi minaatanlardan və iriçaplı silahlardan atəşə tutub.

Müdafiə Nazirliyi xəbərdar edir ki, dinc əhalimizin yaşadığı kəndləri atəşə tutan işğal olunmuş ərazilərdəki təmas xəttinə yaxın yaşayış məntəqələrində yerləşən düşmənin döyüş mövqelərini və hərbi obyektlərini məhv etmək məqsədilə ordumuz cavab tədbirləri görəcək və buna görə məsuliyyət Ermənistanın cinayətkar rejiminin üzərinə düşəcəkdir.

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***11 dekabr 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində 60 və 82 millimetrlik minaatanlardan, həmçinin iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 101 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Dovex kəndində yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Talış, Tərtər rayonunun Çiləbürt, Qızıloba, Yarımca, Ağdam rayonunun Cəvahirli, Kəngərli, Sarıcalı, Novruzlu, Şuraabad, Şıxlar, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Qorqan, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitini nəzərə alaraq, düşmənin atəş nöqtələrinə, mövqelərinə və səngərlərinə 111 dəfə atəş zərbəsi endirib.

*Ön xətdən reportaj*

# "Düşmənin zəifliyi hər addımda hiss olunur"

Hərbi hissənin qərargahında ilk olaraq polkovnik-leytenant Şükür Həmidovla görüşdük. Ön xətdəki vəziyyətdən söz açan zabit bildirdi ki, hərbi hissənin şəxsi heyəti səngərlərdə ayıq-sayıq dayanır, torpaqlarımızı göz bəbəyi kimi qoruyur. "Zabit və əsgərlərimiz gecə-gündüz torpaqlarımıza keşik çəkirlər. Ermənilərin atəşkəs rejimini pozmaq cəhdlərinin qarşısı qətiyyətlə alınır. İndi ermənilər xeyli zəifləyib, fəallığı nəzərə çarpmır. Bir balaca fəallaşan kimi cəsur əsgərlərimiz tərəfindən dəqiq atəş zərbələri ilə məhv edilir.



Bir neçə gün əvvəl qəsbkarlar yenə də atəşkəs rejimini pozmağa cəhd göstərdi. Bu cəhdin qarşısı da əvvəlkilər kimi qətiyyətlə alındı. Ağır itkiyə məruz qalan düşmən geri çəkilməyə məcbur oldu. Artıq düşmənin zəifliyi hər addımda hiss olunur. İnamla demək olar ki, döyüşlərdə uğur qazanacağıq. Bütün səy və bacarığımız yalnız qələbəyə köklənib".

Qərargahda çox ləngiməyib ön xəttə yola düşdük. Böyük bir həvəslə torpaqlarımızın keşiyini çəkən döyüşçülərin görüşünə tələsirik. Bir-birindən gözəl olan təbiət mənzərələri ürəyimizi, qəlbimizi oxşayır.

Sonuncu yaşayış məntəqəsini də keçib ön xəttə yaxınlaşırıq. Yollar, cığırlar bir-birini kəsir. Hər cığırın, hər yolun sonda bir ünvanı var, amma biz getdiyimiz yollar səngərlərə qədərdir. Oradan o tərəfə uzanan yollar neçə illərdir ki, düşmənə bağlıdır. Artıq neçə illərdir erməni qəsbkarları ərazilərimizi zəbt ediblər. Bu ərazilərdə yaşamış insanlar doğma ocaqlardan uzaqlarda qaçqınlıq həyatına məcbur ediliblər.

Ön xətdə yerləşən mövqelərdə bizi taqım komandiri leytenant Ələkbər Ələkbərli qarşıladı. Bildirdi ki, əsgərlərimiz qorxu bilmədən gecə-gündüz yurdumuza keşik çəkirlər.

- Ön xətdə xidmət etməkdən qürur duyuruq, - dedi gənc zabit. - Xalqımız əmin olsun ki, biz yurdumuzu göz bəbəyimiz kimi qoruyuruq. Torpaqlarımızın erməni qəsbkarlarının tapdağı altında qalması bir zabit kimi məni də çox narahat edir. Buna görə də silahdaşlarımla birlikdə yurdumuzu erməni işğalçılarından azad etməyə hər an hazıram.

Zabitlə səngər boyu gəzib torpaqlarımızı qoruyan əsgərlərlə görüşüb tanış oluruq, söhbət edirik. İlk baxışdan hiss edirəm ki, hamısının üz-gözündən igidlik, qəhrəmanlıq yağır. Əsgərlərdən Talıb İsgəndərov, Tariyel Tağıyev, Eldar Quluyev, Taleh Mikayılov və başqalarının ürək sözlərini dinlədim. Eşitdiyim sözlərdən əmin oldum ki, belə cəsur övladları olan ölkənin torpaqları düşmən əsirliyində qala bilməz.

Növbəti postda əsgər düşmən mövqelərinə nəzarət edir, gərgin müşahidələr aparırdı. Tanışlıqdan öyrənirəm ki, əsgər Ruslan Babayev ordu sıralarına Gəncə torpağından çağırılıb. Bir ildən artıqdır ki, Vətən qarşısındakı övladlıq borcunu yerinə yetirir.

- Ön xətdə xidmət etmək ürəyimcədir, - deyir əsgər Babayev. - Düşmən mövqelərini daim nəzarətdə saxlayırıq. Davamlı müşahidə aparırıq. Qəsbkarların hər addımına göz qoyuruq. Ermənilərə nifrətim sonsuzdur. Qəsbkarlar Xocalıda, Qaradağlıda, Malıbəylidə, eləcə də başqa yaşayış məntəqələrində xalqımıza olmazın işgəncələr veriblər. Düşməndən bu intiqamı almalıyıq, artıq qisas almağın vaxtıdır. Axı qisas qiyamətə qalmaz.

Başqa postlarda da gənc döyüşçülərlə görüşüb söhbət edirik. Belə söhbətlərdən ürəyim dağa dönür. Bir daha inanıram ki, onlar hər an torpaqlarımızı azad etməyə hazırdırlar.

**Mayor Vahid MƏHƏRRƏMOV, "Azərbaycan Ordusu"**

General Səməd bəy Mehmandarov - 160

# Sərkərdə Birinci Dünya müharibəsi dövründə

***Birinci Dünya müharibəsi bir sıra dövlətlərin dünyanı bölüşdürmək məqsədindən yaranmış imperialist ziddiyyətlərin kəskinləşməsi nəticəsində başlamışdı. Bu müharibə dünya tarixinə ədalətsiz imperialist müharibəsi kimi həkk olunub. Müharibə ərəfəsində bütün Avropa dövlətləri nəinki güclü ordular yaratmış, hətta ehtiyat qüvvələr də toplamışdı. Bir çox ölkələrin silahlı qüvvələri quru qoşunları və hərbi dəniz donanmasından ibarət idi. Quru qoşunlarına piyada, süvari, topçu, mühəndis, rabitə hissələri və arxa cəbhə xidmətləri daxil idi. Qoşunlar birləşərək, korpus və diviziyalar yaradılırdı. Piyada diviziyası iki piyada briqada, top briqadası, 1-3 süvari eskadronu, 1-2 bölük istehkamçı və arxa cəbhə bölmələrində cəmləşirdi. Diviziya 16-21 min canlı qüvvə ilə komplektləşdirilirdi.***

Bu ağır, dəhşətli müharibədə Azərbaycan oğulları da Rusiya ordusu tərkibində döyüşərək, cəbhələrdə mərdlik, şücaət nümunələri göstərərək orden və medallara layiq görülmüşlər. 250-dən çox azərbaycanlı zabit müharibə meydanlarında göstərdikləri qəhrəmanlıqlarıyla əbədi şöhrət qazanıb. Tanınmış Azərbaycan generallarından Teymur bəy Novruzov, Əmir Kazım Qacar, Əmənulla xan Qacar, Həbib bəy Səlimov hərbi əməliyyatlarda fəal iştirak ediblər. Fərrux ağa Qayıbov 1916-cı ildə düşmənin 4 təyyarəsinə qarşı təkbaşına döyüşərək onların 3-ü məhv edir, özü də bu döyüşdə qəhrəmancasına həlak olur. Hüseyn xan Naxçıvanski müharibə illərində tam süvari generalı rütbəsinə və general-adyutant fəxri adına layiq görülür. O, 1-ci qvardiya süvari korpusunun komandiri vəzifəsində Rusiya ordusunun adlı-sanlı generallarından sayılırdı. Rus artilleriyasının Allahı adlandırılan Ələğa Şıxlinskiyə müharibə illərində general-leytenant hərbi rütbəsi verilir. Və o, 1917-ci ildə 10-cu ordunun komandanı təyin edilir.

Səməd bəy Mehmandarov isə müharibə başlananda Vladiqafqazda 21-ci piyada diviziyasının komandiri idi. Bu piyada diviziyasının tərkibinə 81-ci Abşeron, 82-ci Dağıstan, 83-cü Samur, 8-ci Şirvan, 205-ci Şamaxı, 206-cı Salyan alayları daxil idi. Bu alayların hər birinin özünəməxsus döyüş ənənəsi vardı. O, müharibənin gedişində tam artilleriya generalı rütbəsinə layiq görülərək 2-ci Qafqaz korpusunun komandiri təyin edilir. Generalı yaxından tanıyan keçmiş çar ordusunun zabiti Hacıağa İbrahimbəyli 1946-cı ildə yazdığı "Səməd bəy Mehmandarov" adlı kitabında fəxrlə yazırdı ki, rəsmən hərbi akademik təhsili olmayan bir zabit yalnız böyük bacarığı sayəsində, hərbi xidməti çox sevdiyinə, döyüşlərdə misilsiz qoçaqlıq və hərbi məharət göstərdiyinə, işinə can yandırdığına, son dərəcədə təmiz adam olduğuna görə bu qədər böyük rütbə sahibi ola bilərdi.



Mehmandarov məhz belə bir zabit idi. Əla səviyyəli topçu olan S.Mehmandarova rəsmən topçu akademik təhsili olan hər bir topçu, həmçinin görkəmli qoşun generalı olan hər bir ərkani hərb zabiti həsəd apara bilərdi.

I Dünya müharibəsi (1914-1918) illərində general S.Mehmandarov bir neçə uğurlu hərbi əməliyyatı yerinə yetirən istedadlı sərkərdə kimi tanınmışdı. 1914-cü ildə o, komandiri olduğu 21-ci piyada diviziyası ilə Avstriya-Almaniyaya qarşı döyüşürdü. Həmin il sentyabrın 15-də keçirilən Lodz əməliyyatı general Mehmandarovun şöhrətini daha da artırdı. Alman generalı Makenzenin qoşunları güclü hücumla İvanqorod şəhərini alıb, sürətlə Lodz şəhəri uğrunda əməliyyata başladı. Ağır döyüşlər altında geri çəkilən rus qoşunları çox ağır durumda idi. Bütün mövqelərdən hücuma keçən almanlar dayanmadan irəliləyərək rus qoşunlarını mühasirəyə almağa çalışırdı. Bu zaman korpus komandiri 21-ci diviziyanın vəziyyəti barədə Mehmandarovdan soruşarkən komandirlərə məxsus mərd, qısa və qəti cavabı belə olur: "Vəziyyət ağırdır, hücuma keçirəm".

İki rus ordusunun geri çəkildiyi vaxtda Mehmandarovun diviziyası sürətlə irəliləyən düşmənə ağır zərbə endirir. Döyüşçülər üç günlük ölüm-dirim savaşından sonra İvanqorod şəhərinin hüdudlarına çatıb düşmənə həmlə etməyə nail olurlar. I Dünya müharibəsi tarixində S.Mehmandarovun bu uğurlu əməliyyatı alman generalı Makenzenin sürətli hücum planlarını puça çıxardır. Bu əməliyyat zamanı baş qərargahın xüsusi tapşırıqçısı vəzifəsini daşıyan Ə.Şıxlinski Mehmandarovu mahir topçu adlandıraraq, öz xatirələrində həmin anları belə xatırlayırdı: "O zaman rus ordusunda yeni bir silah olan ağır səhra toplarının vəziyyətini yoxlamaq və bu sahədə fəaliyyətə istiqamət vermək üçün Qərb cəbhəsinə çağırıldıqda mən yeddi korpusu gəzdim və müəyyən etdim ki, yalnız Mehmandarovun korpusunda ağır topların vəzifəsi düzgün başa düşülmüş və toplar həmin vəzifələrə uyğun yerləşdirilmişdi. Bu iş korpus top müfəttişinin təşəbbüsü deyil, mahir topçu olan Mehmandarovun şəxsi təşəbbüsünün nəticəsi idi".

I Dünya müharibəsi zamanı tam artilleriya generalı S.Mehmandarovun son hərbi vəzifəsi korpuslar qrupunun komandanı idi ki, bu vəzifə də ordu komandanı vəzifəsinə bərabər tutulurdu. O, döyüşlərdə göstərdiyi rəşadətə görə dəfələrlə istər Rusiya dövlətinə məxsus, istərsə də xarici ölkələrin (Fransa, İngiltərə, Rumıniya) ordenləri ilə təltif edilmişdi.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

---

Şahinlərimiz

# "İlk dəfə səmaya qalxanda özümü xoşbəxt sandım"

***Uşaqlığım Hərbi Hava Qüvvələrinə məxsus "N" hərbi hissəsinin hərbi şəhərciyində keçib. Mənim kimi orda böyüyüb boya-başa çatanların hər biri yəqin ki, gurultulu qırıcı səsinə yuxudan oyanıb pəncərəyə qaçıb. Düzdü, hər dəfə əzəmətli qırıcılara baxmaqdan zövq alardım. Göyləri fəth edənlərin kimlər olduğu haqqında düşünər, bir gün onları tanıyacağımı arzu edərdim. Nəhayət ki, qismət oldu.***

Beləliklə, təyyarəçi kapitan Toğrul Quliyev. 1985-ci il iyunun 17-də Naxçıvan Muxtar Respublikasında sadə bir ailədə dünyaya göz açıb. Yaşadığı ailədə və ictimai mühitdə aldığı dəyərli tərbiyə onun nizam-intizam, məsuliyyət, vətənpərvərlik ruhunda böyüməsinə səbəb olub.

Toğrulu şəxsən tanımayanlara deyək ki, onun elə də hündür olmayan boyu, gümrah bədəni və iti yerişi var. Sifətinin dərinliyində yerləşən gözlərindəki mənalar, çöhrəsindəki mülayimiliyi, həmsöhbətini özünə çəkən xoş əhval-ruhiyyəsi, ən əsası isə Vətən sevgisi onun mənəvi keyfiyyətlərindən xəbər verir.

Orta təhsil aldığı illərdə doğma məktəbində artıq bacarıqlı və sevimli şagird kimi tanınan Toğrul qazandığı uğurlarda müəllimi Rozetda Mustafayevanın, atası Kamil Quliyevin və anası Nüşabə xanımın xidmətlərini həmişə minnətdarlıqla xatırlayır.

Hələ 15 yaşı olanda, 2000-ci ildə Heydər Əliyev adına Hərbi Liseyə daxil olan yeniyetmə dərhal liseyin müəllim-tələbə mühitinə qaynayıb-qarışır. Hərbçi olmaq həvəsi, parlaq zəkası, zəhmətsevərliyi, ünsiyyətcilliyi Toğrulun həmin mühitdə sürətlə tanınmasına, nüfuz qazanmasına gətirib çıxarır.

Sonralar xatırlayır ki, "Hərbi Liseydə təhsil almağım məni orduya və hərbçi peşəsinə sıx bağladı. Hərbi geyimlə necə davranmağı, nizam-intizamlı olmağı və ən əsası hərb sənətinin sirlərini öyrətdi".

2003-cü ildə Hərbi Liseyi uğurla başa vurduqdan sonra Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbinə daxil olur. Liseydə aldığı hərbi təhsil bundan sonralar da uğur qazanmasına kömək edir. Gənclik illərindən başlanan ardıcıl, gərgin və məhsuldar təhsil Toğrulu hərbçi kimi formalaşdırır.

Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbini bitirdikdən sonra yalnız hərbi təhsilinə, fərdi bacarığına qapılıb qalmayan, Azərbaycanın, ümumən dünya aviasiya elminin təcrübəsini öyrənib mənimsəməyə, dünyagörüşünü zənginləşdirməyə, hərbi biliklərini, gələcəyin mahir pilotu kimi formalaşdırmağa çalışan Toğrulun qarşısında yeni imkanlar açılır. 2007-2008-ci illərdə Uçuş Hazırlıq Təlim Mərkəzinə daxil olur və burada peşəkar pilot kimi əhəmiyyətli vərdişlərə alışır.

Vətəninə, peşəsinə ürəkdən, canı-qanı ilə bağlı olan pilotun uğurlu yolu 2008-ci ildə ilk uçuşunu həyata keçirdikdən sonra başlayır. Toğrul ilk uçuşunu belə xatırlayır: "2008-ci il 21 may - artıq sərbəst uçacaqdım. Uçuş təlimatçımız hazırda ehtiyatda olan mayor Vüqar Həsənov idi. L-39 tipli təlim təyyarəsinə qalxıb uçuş zolağında hərəkət etməyə başladım. Səmaya qalxmaq üçün müəyyən olunmuş sürət həddinə qalxdıqca sanki bədənimdə qan dövranı sürətlə dəyişirdi. Qəflətən təyyarənin təkərlərinin yerdən üzüldüyünü hiss etdim. Havaya qalxdım. Uçuşu uğurla başa vurub yerə endikdən sonra təlimatçı zabitin "artıq sən Azərbaycan təyyarələrini işğal olunmuş torpaqlarımızda uçuracaq pilotlarımızdan birisən", - dedi. Həmin gündən sonra minlərlə uçuş həyata keçirmişəm".



Təcrübəli pilot Ali Baş Komandanın hərbi qulluqçuların mənzil və sosial-məişət şəraitlərinin yaxşılaşdırılması ilə əlaqədar müvafiq göstərişinə əsasən, tikilib istifadəyə verilən binalardan birində xidməti evlə təmin olunub. Hər bir şəraiti olan mənzilə sahib olan pilotun səmada olarkən ailəsi sarıdan narahat olmaması əslində onun uçuşlarının daha uğurlu olmasına zəmin yaradır.

"Xidmətimdən, xalqımın, Vətənimin keşiyində dayanmaqdan çox razıyam. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev və Müdafiə naziri general-polkovnik Zakir Həsənovun biz hərbçilərə göstərdiyi diqqət və qayğı hər birimizin ürəyincədir", - deyə həmsöhbətim əlverişli xidmət üçün yaradılan şəraitdən razılıq edir.

Gücünü ailəsindən, Vətənə bir övlad sevgisindən alan pilot, Azərbaycan Ordusunu qüdrətli, yenilməz sayır. Onun sözlərinə görə, peşəkar pilot kimi formalaşmasının ən mühüm səbəblərdən biri təlimlərdə qazandıqları uğurlardır. Digər tərəfdən yorulmaq bilmədən peşə vərdişlərini artırması, daim öz üzərində səylə çalışması onun uğurlarına əsas təminatdır.

2 övladı olan təyyarəçi hər zaman deyir ki, özümə oğul yox, Vətənə igid böyüdürəm. "Oğlanlarım Kamil də, Mətin də gələcəyin əsgərləri, düşmənə göz dağı olacaq Vətən oğullarıdır. Onları peşəkar hərbçi kimi böyütmək əsas məqsədlərimdən biridir. Qoy düşmən anlasın ki, bu gün hər azərbaycanlı ailəsində sabahın güclü əsgəri böyüyür".

Hazırda Hərbi Hava Qüvvələrinin "N" hərbi hissəsində xidmətini davam etdirən pilot kollektiv arasında sayılıb-seçilən, hörmət sahibi olanlardan biridir. Xidmətində diqqətli, kollektivdə isə qayğıkeş və intizamldır.

Peşəkar təyyarəçimizə biz də xeyir-dua verib ondan ayrılırıq. Qoy gələcək həyatında həm şəxsi, həm də xidməti uğurlarının sayı artıq olsun!

**Baş leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu"**

---

Vətənpərvərlik

# Örnək

***Bu mövzuda danışmaq, yazmaq qürurverici və bir o qədər də çətindir. Şəhidlərimizi, Vətənimizin azadlığı və ərazi bütövlüyü yolunda canlarından keçən döyüşçülərimizi anlatmağa cümlələr bəs etməz. Axı şəhidlik elə bir uca zirvədir ki, ana Vətən uğrunda canını qurban verib bu zirvəyə yüksələn soydaşlarımız bizim aramızda olmasa da, ürəklərimizdə hər zaman yaşayırlar. Onlar sadəcə dünyalarını dəyişir, ruhları isə hər zaman bizimlədir.***

İnsan dünyaya göz açdıqda onu bir həyat yolu gözləyir. Cəmiyyətdə bir şəxsiyyət kimi formalaşan insanın yaxşı təhsil almaq, iş-güc sahibi olmaq, ailə həyatı qurmaq və s. kimi seçimləri olur. Bir sözlə, insan öz zəhmətindən, çalışqanlığından, təhsilindən asılı olaraq özünə bir məqsəd, hədəf seçir və həyatda yer tutmaq üçün mübarizə aparır. Bu mübarizədə insan öz seçimi və istəyi ilə hərəkət edir, üzləşdiyi problemləri həll edir. Lakin insanın arzu və istəklərindən asılı olmayaraq baş verən, çarəsi olmayan bir təbii proses var ki, o da insanların həyatlarını başa vurub dünyalarını dəyişmələridir. Ölüm nə qədər haqdırsa, yaşamaq bir o qədər şirindir. Gündəlik həyatımızda baş verən yol qəzalarında, cinayət hadisələrində və intihar hallarında nə qədər insan dünyasını dəyişir. Bu cür hadisələrin çoxu insanların öz günahı, cahilliyi üzündən baş verir və nəticədə dağılmış ailələrin, gözü yaşlı övladların sayı artır. Lakin ölüm nə qədər ağrılı olsa da, ölümün bir addımlığında olduqlarını bilərək geydikləri formanı öz kəfənləri hesab edən hərbi qulluqçularımız var ki, onlar Vətən, torpaq, millət üçün sinələrini düşmənə sipər edib yurdumuzu qoruyanlardır. Hər an düşmən gülləsindən açılan atəş onların həyatına son qoya bilər. Buna baxmayaraq döyüşçülərimiz gözlərini belə qırpmadan torpaqlarımızın keşiyində dayanmaqdan qürurlanırlar. Onların tək amalı ümummilli liderimiz Heydər Əliyevin "Vətənini, torpağını, dövlətini, öz müstəqil Azərbaycanını qorumaq öz ata-anasını qorumaq deməkdir, evini qorumaq deməkdir" kəlamını üstün tutaraq Vətənimizin bütövlüyü uğrunda ölümün ən uca zirvəsi olan şəhidlik məqamına yüksəlməkdir. Şəhidlik elə bir zirvədir ki, bu zirvəyə ucalmış hər qəhrəmanımızla həm xalqımız, həm də ailə üzvləri, yaxınları fəxr hissi duyur. Bu gün neçə ailə tanıyıram ki, şəhid ailəsi olmaqdan fərəhləndiklərini deyirlər. Bəli, öz övladlarınının, yaxınlarının ölümü ilə fəxr etmək nə qədər təəccüblü olsa da, bir o qədər də qürurverici haldır, çünki onların övladları şəhidlik zirvəsinə ucalıb və adlarını tarixə qızıl hərflərlə yazdırıblar. Artıq belələri bütün xalqın qürur duyduğu bir qəhrəman olacaq və ürəklərdə hər zaman yaşayacaqlar.

Torpaqlarımızın qorunması, Vətənimizin müdafiəsi uğrunda canından, qanından keçərək şəhidlik zirvəsinə ucalanların xatirəsini daim yüksək tutmaq və onların ömür yolundan nümunə götürmək hər kəsin vətəndaşlıq borcudur. Müasir dövrdə yeniyetmə və gənclərimiz Vətənimizi sevib, onun uğrunda canından keçən, mərmilərin, topların qarşısında sinə gərən şəhidlərimizi heç vaxt unutmur, onlarla fəxr edirlər. Əslində qısa, lakin şərəfli ömür sahibi olan şəhidləri daim özümüzə örnək bilməli və haqdan gələn bir səslə deməliyik: - Biz sizdən öyrəndik qəhrəmanlığı!

**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**

---

Əsgərin tribunası

# Hər zaman əmrə hazırıq

***Hər bir əsgərin başlıca vəzifəsi üzərinə düşən döyüş vərdişlərini lazımınca mənimsəməkdir. Bunun üçün də hərbi xidmətə gəldiyin gündən komandirlərinin verdiyi əmr və göstərişlərə ciddi əməl etməlisən. Sıra, intizam, döyüş nizamnamələrini bizə aşılayan komandirlərimizin hər bir tapşırığına ciddi əməl edirik. Hərbi qulluqçunun nizam-intizamı yüksək səviyyədə olmalı, komandirlərin verdiyi əmr və göstərişləri sözsüz yerinə yetirməlidir. Bu gün şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığı ilə məşğul olan komandir heyəti təcrübəlidir.***



Yarım ildən artıqdır hərbi xidmətdəyəm. Bu dövr ərzində peşəkar zabitlərin sayəsində bir çox biliklər əldə etmişəm. Komandirlərin keçdiyi məşğələləri dərindən mənimsəməyə çalışmışam. Bununla demək istəyirəm ki, hərbi biliklərə dərindən yiyələnməklə döyüş vərdişlərinə yetərincə alışa bilirik.

Erməni tapdağı altında qalan Qarabağımızın və ətraf rayonlarımızın azad edilməsi uğrunda döyüşlərdə uğur qazanacağımıza əminəm. İnanırıq ki, Prezident İlham Əliyev sülh yolu ilə ölkəmizin ərazi bütövlüyünü təmin edəcək. Əgər işğalçı Ermənistan öz bəd əməlindən əl çəkməsə, o zaman dövlətimiz alternativ tədbirlər görəcəkdir. Biz də bir əsgər olaraq Ali Baş Komandanın hər bir əmrinə hazır olacağıq. İstər xidmət etdiyim dövrdə olsun, istərsə də ehtiyata buraxıldığım vaxta təsadüf etsin, fərq etməz, bir vətəndaş olaraq cəbhədə, ön xətdə silahdaşlarımla çiyin-çiyinə olacağam.

Yiyələndiyim artilleriya ixtisası üzrə hərbi biliklər və döyüş ənənələrini Vətənimizin azadlığı naminə döyüş meydanında tətbiq etməyə hazıram. Biz əsgərlərin ən böyük arzusudur ki, erməni işğalı altında olan yurd yerlərimiz azad olunsun, elindən-obasından didərgin düşmüş soydaşlarımız öz doğma ocaqlarına qayıtsınlar.

**əsgər**
**Həsən RƏHİMOV,**
**"N" hərbi hissəsi**

---

# Xəbərlər:
## hadisələr, faktlar

### İran ordusu genişmiqyaslı hərbi təlim keçirəcək



İran ordusunun quru qoşunları İŞİD terror qruplaşmasının təhdidlərinin qarşısını almaq məqsədilə genişmiqyaslı hərbi təlim keçirəcək.

Bu haqqda məlumat verən İran ordusunun quru qoşunları komandanı, general Əhməd Rza Purdəstan onu da diqqətə çatdırıb ki, təlimə hava qüvvələrinin də bəzi hissələri qatılacaq. General bəyan edib ki, İranın təhlükəsizliyinə qarşı hər hansı bir addım atılarsa o zaman nüvə, kimyəvi və bioloji silahlardan başqa bütün növ silahlardan istifadə olunacaq.

Qeyd olunub ki, İran hava hücumundan müdafiə sistemini gücləndirmək üçün Rusiyadan C-300 tipli zenit raket komplekslərini almaq niyyətindədir. Bu ərəfədə isə İranın Sistan bölgəsində terror aktının baş verdiyi bildirilir. Yerli mətbuatın yazdığına görə, özlərini bəlluc və sünni azlıqlar hesab edən qruplaşmanın üzvləri Nikşəhr şəhərində partlayış törədiblər. Nəticədə 3 polis həlak olub, bir neçə nəfər isə ağır yaralanıb.

### ABŞ: "Zumwalt" esminesinin sınaqları başlayıb



ABŞ Hərbi Dəniz Qüvvələri tarixində ən böyük esmines olan "Zumwalt" ilk sınaqlar üçün dənizə çıxarılıb. Korpusunun uzunluğu 185 metr, subasımı 15 min ton olan esmines 4,4 milyard ABŞ dollarına başa gəlib. Hərbi gəmi əm müasir radar və sonorlarla, güclü raket və silahlarla təchiz olunub. "Zumwalt" esminesinin korpusu isə onun radarla aşkarlanması ehtimalını azalda biləcək formada layihələndirilib.

Gəminin ABŞ Hərbi Dəniz Qüvvələrinə gələn il verilməsi gözlənilir.

### "Taliban" yaraqlılarının aeroporta hücumu nəticəsində 8 nəfər həlak olub



"Taliban" döyüşçülərinin Əfqanıstanın cənubundakı Qandahar əyalətində yerləşən hava limanına hücumu nəticəsində azı 8 nəfər həlak olub.

Yerli hökumət yaraqlıların hava limanının yaxınlığındakı köhnə məktəb binasından atəş açdıqlarını və döyüşlərdə 10 yaraqlının öldürüldüyünü iddia edir.

Regional müşahidəçilərin fikrincə, "Taliban" döyüşçülərinin hədəfində əfqan ordusu və NATO kontingentinin hava limanında yerləşən müştərək hərbi bazası olub. Əldə olan məlumata əsasən, yaraqlılar aeroport kompleksinə girərək hərbçilərin evlərini atəşə tutublar.

### Norveçin cənub regionları son 200 ilin ən güclü fırtınası ilə üzləşib



Norveçin şimal regionlarında son 200 ildə ən güclü fırtına qeydə alınıb.

Dekabrın 6-da axşam saatlarında Norveçin şimal hissəsində başlayan Sinne fırtınası dağıntılara səbəb olub. Əlverişsiz hava şəraiti nəticəsində krallıq daşqınlar və nəqliyyat problemləri ilə üzləşib.

Norveç KİV-ləri xəbər verir ki, leysan, qar, güclü külək nəticəsində Norveç hökuməti qırmızı səviyyəli təhlükə (ən yüksək) elan edib. Sinne fırtınasının fəsadlarına qarşı mübarizə aparmaq üçün xüsusi operativ qrup yaradılıb.

Norveç hökuməti qurbanlar olmasın deyə bir sıra şəhər sakinlərini təxliyyə edib, bir çox yerlərdə magistral və ikinci dərəcəli avtomobil yolları bağlanıb, dəmiryol nəqliyyatı işini dayandırıb. Əlverişsiz hava və görülmüş tədbirlər nəticəsində Norveçin cənubundan qərbinə gedən avtomobil yolu bağlanıb. Daha ciddi vəziyyətin yarandığı Ruqalan əyaləti hökumətinin məlumatına görə, burada yağıntının çox olması bəzi çayların öz məcrasından çıxmasına səbəb olub. Nəticədə körpüləri, şəhər və kəndləri su basıb. Əyalətin bəzi yerlərində, xüsusən, Dalane rayonunda vəziyyət son dərəcədə ciddidir. Dalane rayonunda suyun səviyyəsi yerli əhalini işıqsız, mobil rabitəsiz və yollarsız qoyub.

Byerkreym əyalətinin paytaxtı Vikesa şəhərinin mərkəzi və hətta ratuşa binası suyun altında qalıb. Yüzlərlə şəxsi evə ziyan dəyib.

### Tacikistan Prezidentinə "Millətin Lideri" titulunun verilməsi ilə bağlı qanun layihəsi qəbul edilib



Tacikistan parlamentinin aşağı palatası "Sülhün və milli bərabərliyin banisi-Millətin Lideri" adlı qanun layihəsini qəbul edib.

Aşağı palatanın sədri Şukurjon Zuxurov bildirib ki, dövlət başçısı Emamali Rahmonun ölkədə sülhün və sabitliyin bərpa olunması və vətəndaş müharibəsinin dayandırılması da böyük rolu var. O qeyd edib ki, ayrı-ayrı ölkələrdə böyük xidməti olan dövlət başçılarına Millətin Lideri, Millətin atası adının verilməsi praktikası var. Belə ki, ABŞ-da Corc Vaşinqtona, Türkiyədə Mustafa Kamal Atatürkə, Hindistanda Mahatma Qandiyə, Qazaxıstanda Nursultan Nazarbayevə belə adlar verilib.

Vurğulanıb ki, 16 maddədən ibarət qanunda Millətin Liderinə toxunulmazlıq hüququ və yüksək təqaüd verilir. Həmçinin, həmin şəxs nəqliyyat və yaşayış sahəsi ilə təmin olunur, bütün xərclər dövlət büdcəsindən ödənilir. Qanunda Millətin Liderinin muzeyi, kitabxanası və arxivinin yaradılması da nəzərdə tutulur.

### Müqəddəs Pyotr meydanında nümayiş olunan işıq şousunu 100 mindən çox insan izləyib



Vatikanda "Mərhəmət Yubileyi" çərçivəsində keçirilmiş ilk tədbir maraqlı görüntülərlə yadda qalıb. Belə ki, mərasimdə iştirak etmək üçün Müqəddəs Pyotr meydanına toplaşmış 100 mindən çox insan axşam saatlarında nümayiş olunan qeyri-adi işıq şousunu böyük maraqla izləyib.

Şou zamanı heyranlıq doğuran görüntülər əsasən heyvanları və təbiəti əks etdirib. Təşkilatçılar bu yolla diqqəti ətraf mühitin qorunmasına yönəltmək istəyiblər. Meydanın ərazisində genişmiqyaslı təhlükəsizlik tədbirləri həyata keçirilib.

Qeyd edək ki, tarixdə 27-ci müqəddəs il olan "Mərhəmət Yubileyi" cari il martın 13-də Roma Papası Fransisk tərəfindən elan olunub. Yubiley çərçivəsində tədbir Müqəddəs Pyotr bazilikasında keçirilib. Roma Papası "Müqəddəs Qapı"nı açaraq Müqəddəs Pyotr meydanına toplaşan insanları Allahın mərhəmət işığında addımlamağa çağırıb.

**AZƏRTAC-ın materialları əsasında**

AZƏRBAYCAN ORDUSU

# Hərb Tarixi Muzeyinin yaradılmasından 23 il ötdü



***Dekabrın 10-da Azərbaycan Hərb Tarixi Muzeyinin yaradılmasının 23-cü ildönümü ilə əlaqədar tədbir keçirilib.***

Əvvəlcə ümummilli lider Heydər Əliyevin və respublikamızın ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Dövlət himni səsləndirildi. Qonaqları salamlayan muzeyin rəisi ehtiyatda olan polkovnik Əzizağa Qənizadə "Azərbaycan Hərb Tarixi Muzeyi - 23!" adlı məruzə ilə çıxış edib. Muzeyin yaranma tarixindən və əlaqələrindən ətraflı danışan natiq məlumat üçün bildirib ki, muzey 29 oktyabr 1992-ci il tarixdə keçmiş Salyan kazarması deyilən, indiki Qızıl Şərq hərbi şəhərciyi adlandırılan ərazidə yerləşən Müstəqil Dövlət Birliyinin 4-cü ordu qarnizonunun "Döyüş şöhrəti" muzeyinin bazasında yaradılıb və Müdafiə nazirinin əmrinə əsasən, 10 dekabr 1992-ci ildə təşkil edilib. Yarandığı gündən AMEA-nın Tarix və Arxeologiya, Etnoqrafiya institutları, Bakı Dövlət Universiteti, Mərkəzi Dövlət Arxivi, İctimai Siyasi Arxivi, respublikanın veteran təşkilatları, şəhər və rayon muzeyləri ilk quruculuq işlərində köməklərini əsirgəməmişlər.

Muzeyin ekspozisiya quruculuğuna toxunan rəis vurğuladı ki, yeni bina təhvil verildikdən sonra muzeyin açıq səma altında və daxili ekspoziyası qurulub. “Daxili ekspozisiyada 12 zal fəaliyyət göstərir. Zallarda xronoloji ardıcıllıqla dövrlər üzrə 6 minədək eksponat nümayiş olunur”.

Bildirildi ki, muzeyin ərazisində yaradılan açıq səma altında ekspozisiyada Quru Qoşunları, Hərbi Hava Qüvvələri, Hava Hücumundan Müdafiə və Hərbi Dəniz Qüvvələrinə aid müxtəlif növ hərbi texnika mühafizə olunur. Tarix və fondun zənginləşdirilməsi məqsədilə muzeyin əməkdaşları Azərbaycanın şəhər və rayonlarına ezam olunaraq, bölgələrimizdə yerləşən tarix-diyarşünaslıq muzeyləri, Heydər Əliyev Mərkəzləri və digər qurumların nümayəndələri ilə görüşlər keçirərək onlardan muzeyin profilinə uyğun mühüm əhəmiyyət kəsb edən materiallar əldə ediblər.

Tədbir muzeyin 23 illik fəaliyyətinə həsr olunmuş video çarxın nümayişi ilə davam edib.

Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin zabiti polkovnik-leytenant Rövşən Qarayev gənclərin hərbi vətənpərvərlik tərbiyəsində muzeyin böyük rol oynadığını xüsusi vurğulayıb və orta məktəb şagirdlərinin bu muzeyə ziyarətinin gənclərin orduya hazırlanması işinə böyük təsiri olduğunu qeyd edib.

Zabit çıxışının sonunda muzeyin kollektivinə yaradıcılıq uğurları arzulayıb.

Tədbir Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin yaradıcı kollektivinin konsert proqramı ilə yekunlaşıb.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu",**
**foto**
**kiçik çavuş**
**Namiq PƏNAHOVUNDUR**

***Məndən, səndən ötən zərbənin Vətənə dəydiyini hamımız bilirik. Vətənə atılan daşları sinəsiylə əsgərlər zərərsizləşdirir, söz daşını isə jurnalistlər. Bu baxımdan cəmiyyətdə sözün yükünü çəkən jurnalistlər də əsgərdilər. Xüsusən də müharibə başa çatmadığı bir vaxtda (müharibə torpaqlarımız işğaldan azad ediləndə başa çatacaq!). Onda sözün də "müsəlləh əsgər"(S.Vurğun) olduğunu xatırlatmağa ehtiyac yoxdu...***

# Jurnalistlər üçün dəyərli layihə

Jurnalist olaraq hərbi mövzuda yazmağın şərəfini məsuliyyəti ilə hiss edənlərə də, bu sıradan "Ekstremal situasiyalarda işləyən jurnalistlərin psixoloji və təcrübi öyrədilməsi" layihəsinin təşkilatçısı jurnalist Əlsafa Mehdiyevə də, bir ay davam edən tədbirdə iştirak edən jurnalistlərə də SÖZün cəfakeşi deməyi özümə mənəvi borc bilirəm...

Jurnalistika cəmiyyətə ancaq informasiya çatdırmaqla kifayətlənərsə, vəzifə borcunu mükəmməl yerinə yetirə bilməyəcək. Ekstremal şərait məfhumu diqtə edir ki, jurnalistika öz fəaliyyətini başlıca olaraq istər Silahlı Qüvvələrin şəxsi heyətinin mənəvi hazırlığının, istərsə də müharibə şəraitində əhalinin milli-xəlqi ruhunun yüksəldilməsinə yönəltməlidir. Ekstremal şərait amilinə istinadən düşünürəm ki, tədbir həm də bu məqsədə hesablanıb; müharibə başa çatmayıbsa, ekstremal şərait davam edəcək. Nə vaxtsa bu tədbirdə iştirak edən jurnalistlərdən müharibə gedən ölkələrə (Suriya, Əfqanistan və b.) ezam edilən də olacaq. Belə məqamları da əhatələyən layihə, təbii ki, jurnalistikamızın dünyəvi təcrübələrlə uzlaşdırılması baxımından dəyərli hesab edilməlidir.

1988-1994-cü illərdə olduğu kimi, indi də dərc edilən informasiyalar, məqalələr jurnalistin mövzuya yaxından bələd olmaması səbəbindən bəzən arzuolunmaz qarşılanır. Bəzən bu və ya digər informasiya zərərli olduğundan dövlətçiliyimizə, Silahlı Qüvvələrimizin nüfuzuna pozitiv təsirini xatırlatmağa ehtiyac yoxdur. Belə informasiyalar əhali arasında müəyyən çaşqınlıqlar da yarada bilir.

Ötən ilin avqust hadisələrində bəzi KİV-lərin informasiyaları, təbii ki, cəmiyyətdə narahatlıq yaratdı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 24 sentyabr 2014-cü il tarixli "Azərbaycan Silahlı Qüvvələrinin Ermənistan Respublikası silahlı qüvvələri ilə təmas xəttində bəzi təhlükəsizlik tədbirləri haqqında" sərəncamı jurnalistlərin fakt və hadisələrə həssas münasibətinin istiqamətlərini müəyyənləşdirdi. Bu tədbiri müəyyən mənada, həmin sərəncamın tələblərinin tərkib hissələrindən biri hesab etmək olar; "Dinc Dünya" Araşdırma Mərkəzinin İdarə Heyətinin sədri Əlsafa Mehdiyev jurnalistikanın vətəndaşlıq mövqeyi ilə tənzimlənməsinin zəruriliyini də nəzərə alıb. Tədbirə dəvət olunan peşəkarların dialoq, dialoq-müzakirə formatında söhbətləri "jurnalistlərin psixoloji və təcrübi öyrədilməsi" tezisinə söykəndiyindən, təbii ki, səmərəli olacaq.

Tədbirin təşkilatçısı Əlsafa Mehdiyev hələ çox əvvəllər, 1994-1995-ci illərdə ekstremal şəraitdə jurnalistlərin fəaliyyəti istiqamətində araşdırmalar apardığını, dünya təcrübəsini çağdaş jurnalistikamıza gətirmək istədiyini demişdi. Bugünkü tədbirin başlanğıcı həmin illərlə səsləşir. Yəni təcrübəli həmkarım mövzunu kifayət qədər əhatəli araşdırıb. Məhz bunun nəticəsidir ki, qısa bir müddətdə müdavimlər hərbi mövzuda informasiya hazırlayanda hansı xüsusiyyətlərə əməl etməyin zəruriliyini öyrənə bildilər. Yaxın vaxtlarda KİV-lərdə bunun nəticəsini görəcəyimizə şübhə etmirəm.

Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinin professorları Şirməmməd Hüseynovun, Cahangir Məmmədlinin, Qulu Məhərrəmlinin, Mətbuat Şurasının sədri Əflatun Amaşovun tədbirdə iştirak etməsi, mövzunun nəzəri əsasları ilə bağlı tövsiyələrini bildirməsi, Müdafiə Nazirliyinin yüksək rütbəli zabitlərinin çıxışları ekstremal şəraitdə işləyən jurnalistlərin fəaliyyətlərində peşəkarlığın təmin edilməsi baxımından tezislər kimi qəbul edilməlidir.

Müdafiə Nazirliyi hərbi mövzuda yazan jurnalistlərin (tədbiri mahiyyəti etibarilə kurs hesab etmək olar və öyrədilmə ifadəsi onlara qeyri-rəsmi müdavim deməyə əsas verir) hərbi terminologiyanı optimal səviyyədə mənimsəməsini də, döyüş şəraiti ilə əyani təmasını da, hərbi vərdişlərə bələdliliyini də bilavasitə poliqonda təşkil etdi. Bu, ekstremal situasiyalarda işləyən jurnalistlərin psixoloji və təcrübi öyrədilməsinə böyük dəstək oldu...

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

# Unutmayaq!

***1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:***

***Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.***
***Şərur rayonunun Kərki və Cünnüt kəndləri (17 fevral 1990) - 19 kv.km.***
***Laçın (17 may 1992-ci il) - 1835 kv.km.***
***Kəlbəcər (3-4 aprel 1993-cü il) - 1936 kv.km.***
***Ağdam (23 iyul 1993-cü il) - 1094 kv.km.***
***Cəbrayıl (18 avqust 1993-cü il) - 1059 kv.km.***
***Füzuli (23 avqust 1993-cü il) - 1386 kv.km.***
***Qubadlı (31 avqust 1993-cü il) - 802 kv.km.***
***Zəngilan (30 oktyabr 1993-cü il) - 707 kv.km.***

**Bu torpaqları azad etmək bizim müqəddəs borcumuzdur!**

# İdman

## Azərbaycan idmançısı pauerliftinq üzrə dünya kuboku yarışlarında qızıl medal qazanıb



Çexiyanın paytaxtı Praqada pauerliftinq üzrə dünya kuboku yarışları keçirilir.

Ölkəmizi dəfələrlə dünya və Avropa çempionu olmuş Bəxtiyar Quliyev təmsil edib. Turnirdə 110 kiloqram çəki dərəsində çıxış edən idmançımız fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Bəxtiyar Quliyev 366 kiloqram nəticə ilə dünya rekordunu yeniləyib və mütləq qələbə qazanıb.

## Azərbaycanın taekvondo üzrə millisi dünya kubokunda Belçika və Özbəkistan yığmalarını məğlub edib



Meksikanın Mexiko şəhərində Dünya Taekvondo Federasiyası (DTF) tərəfindən təşkil edilən milli komandalar arasında dünya kuboku davam edir.

Yarışın ilk günü kişilərdən ibarət yığma komandamız uğurlu çıxış edib. Baş məşqçi Reza Mehmandoust və böyük məşqçi Elnur Amanovun yetirmələrindən Məhəmməd Məmmədov, Ayxan Tağızadə, Sina Bahrami, Səid Quliyev, Milad Beigi Harçeqanı və Radik İsayev ilk görüşünü Belçika yığma komandasına qarşı keçiriblər.

Qarşılaşmada milli komandamız 57:31 hesabı ilə qalib gəlib. Növbəti döyüşdə Özbəkistan komandasına da şans verməyən təmsilçilərimiz (31:11) qrup mərhələsində yerlərini möhkəmlədiblər. Azərbaycan millisi İran, Özbəkistan və Belçika komandaları ilə bir qrupda mübarizə aparır.

## Kişi taekvondoçulardan ibarət Azərbaycan millisi dünya kubokuna sahib olub



Meksikanın paytaxtı Mexikoda milli komandalar arasında taekvondo üzrə dünya kuboku yarışlarında Azərbaycan yığması uğurla çıxış edib. Dünya Taekvondo Federasiyası (DTF) tərəfindən təşkil edilən yarışda kişilərdən ibarət yığma komandamız kuboka sahib olub.

Yığma komandamızın baş məşqçisi Reza Mehmandosut və böyük məşqçi Elnur Amanovun yetirmələrindən Məhəmməd Məmmədov, Ayxan Tağızadə, Sina Bahrami, Səid Quliyev, Milad Beigi Hərçəqani və Radik İsaev ilk görüşünü Belçika yığma komandasına qarşı keçiriblər. Qarşılaşmada milli komandamız 57:31 hesabı ilə qalib gəlib. Növbəti döyüşdə də millimiz Özbəkistan komandasına şans verməyib - 31:11. Yarımfinala adlayan yığmamız Koreya Respublikasının komandası ilə görüşdə 48:30 hesablı qələbə qazanaraq finala yüksəlib. Final döyüşündə güclü İran millisi ilə qarşılaşan komandamız rəqib üzərində inamlı qələbə qazanaraq (42:23) dünya kubokuna sahib çıxıb. Koreya Respublikası və Rusiya yığmaları isə bürünc medala layiq görülüblər. Baş məşqçi Reza Mehmandosut yarışın ən yaxşı məşqçisi, Milad Beigi Hərçəqani isə ən yaxşı kişi taekvondoçu seçilib.

## Boks üzrə Azərbaycan millisi təlim-məşq toplanışına start verib

2015-ci il dünya çempionatını uğurla başa vuran boks üzrə Azərbaycan milli komandası bir müddətlik fasilədən sonra yenidən təlim-məşq toplanışına start verib.

Dohada keçirilən dünya çempionatında uğur qazanan idmançılarımız Azərbaycan Boks Mərkəzində qarşıdan gələn 2016-cı il Rio-de-Janeiro Yay Olimpiya Oyunlarına hazırlığını davam etdirirlər. Lisenziya xarakterli turnirlərə hazırlaşan təmsilçilərimiz məşqçilərin tapşırıqlarına əsasən, həm fiziki, həm də texniki prosesləri yerinə yetirirlər. Komandamızın heyətində Rüfət Hüseynov (49 kq), Elvin Məmişzadə (52 kq), Cavid Çələbiyev, Tayfur Əliyev (hər ikisi 56 kq), Albert Səlimov, Elvin İsayev (hər ikisi 60 kq), Lorentso Sotomayor (64 kq), Pərviz Bağırov (69 kq), Kamran Şahsuvarlı (75 kq), Teymur Məmmədov (81 kq) və Abdulkadir Abdullayev (91 kq) məşqlərini davam etdirirlər. Azərbaycan millisinin lideri Məhəmmədrəsul Məcidov isə zədəsini sağaltmaq üzrədir.

Komandanın böyük məşqçisi Nəriman Abdullayev həm hazırlıq prosesi barədə, həm də qarşıdakı yarışlarla bağlı fikirlərini bildirib. Qeyd edib ki, komandamız gərgin və uğurlarla keçən ili geridə qoymaq üzrədir. Bu il idmançılarımız həm Avropa Oyunlarında, həm dünya çempionatında inamlı çıxış edərək tarixi nəticələr qazanıblar. Qarşıda bizi Olimpiya Oyunlarına lisenziya xarakterli turnirlər gözləyir. Bu yarışlar üçün hazırlıq prosesimizi davam etdiririk. Biz gücümüzü ortaya qoyub Rioda keçiriəcək Olimpiya Oyunlarına maksimum - 10 lisenziya ilə yollanmaq istəyirik.

**AZƏRTAC-ın materialları əsasında**

# Xarici hərbi xronika

## Rusiya ordusunda radioelektron mübarizə sistemi

Müasir müharibə rabitə vasitələri, idarəetmə və radioelektron sistemləri olmadan mümkün deyil. Bu vasitələr içərisində əsas əhəmiyyət kəsb edəni radioelektron mübarizə sistemidir. Son illər Rusiyada müxtəlif təyinatlı radioelektron mübarizə sistemləri yaradılıb və silahlanmaya qəbul edilib. Bu ölkənin Silahlı Qüvvələri üçün müxtəlif növ elektron texnikalarının hazırlanmasına "Radioelektron texnologiyalar" şirkəti cavabdehlik daşıyır. Onun istehsal tempi getdikcə artmaqdadır. Keçən il bu şirkət dövlət sifarişi əsasında 60,4 milyard dəyərində müqaviləni yerinə yetirib ki, bu vəsaitin də 17,1 milyardı radioelektron mübarizə sistemlərinin istehsalına yönəldilib. Ordunun tələbatı üçün hazırlanmış radioelektron "Krasuxa-4" mübarizə sistemi ilə düşmən aviasiyasının radiolokasiya stansiyalarını məhv etmək mümkündür. "Krasuxa-4" kompleksinin tərkibinə cihazlanma ilə təchiz olunmuş iki ədəd "KamAZ" maşını daxil edilib. Maşınlar xarici görünüşünə görə fərqlənir. Onlardan biri teleskopik dirəklə, ikincisi isə parabola antenna bloku ilə təchiz olunub. Kompleksdə rəqəmli elektronikadan istifadə edilir. "Krasuxa-4" radioelektron mübarizə sisteminin bütün xüsusiyyətləri hələ ki, məxfi saxlanılır. Quru qoşunlar üçün nəzərdə tutulmuş bu kompleksin hazırlanmasına ötən əsrin 90-cı illərinin ortalarından başlanıb.

Qoşunları düşmənin artilleriya hücumundan qorumaq üçün daha bir "Civə-BM" ("Rtut-BM") radioelektron mübarizə sistemi hazırlanıb. Özüyeriyən maşın xüsusi cihazlarla təchiz edilib və onunla düşmənin döyüş qurğularının işini pozmaq olar. Fasiləsiz altı saata qədər fəaliyyət göstərir və 20-60 hektar sahədən qoşunları müdafiə edə bilir. Eyni vaxtda düşmənin altı rabitə kanalını da məhv etməyə qadirdir.

Hava-desant qoşunları üçün nəzərdə tutulmuş radioelektron mübarizə sistemindən biri də "İnfauna"dır. Onun əsas vəzifəsi düşmənin rabitə kanallarının məhv edilməsi və öz qoşunlarını radioidarəolunan partlayıcı qurğulardan qorumaqdır.

Hazırda yeni radioelektron mübarizə sistemlərinin istehsalı nəzərdə tutulur. Müxtəlif tapşırıqları yerinə yetirmək üçün belə komplekslər hazırlanıb və qoşunların tərkibinə verilir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

*Əsgərin tribunası*

# Dostlarıma məktub



Salam, əziz dostlarım, sizi "Azərbaycan Ordusu" qəzeti vasitəsi ilə salamlayıram. Hərbi hissəmizə gələn qəzetin müxbirləri məktubumun qəzetdə yayımlanacağını deyəndə çox sevindim. Bu şansı mənə bəxş etdikləri üçün onlara təşəkkür edirəm. Artıq hərbi xidmətdə 6 ayım tamam olur. Bu aylar ərzində mən çox şey öyrənmişəm və öyrənməkdə davam edirəm. Ən əsası Vətən sevgisinin necə ülvi hiss olduğunu dərindən başa düşürəm. Döyüşçü peşəsinin sirlərini öyrənirik. Təcrübəli komandirlərimiz bizləri savadlı, güclü, qorxmaz döyüşçü kimi yetişdirir. Əsl Azərbaycan əsgəri kimi. Burada müasir məişət şəraiti ilə təmin olunmuşuq. Komandirlərimiz daim bizimlə maraqlanır, valideyn kimi qayğımıza qalırlar. Belə bir mühitdə xidmət etmək bizim əhval-ruhiyyəmizi daha da artırır.

Vüqar, salam, necəsən? İşlərin necə gedir? Sənin hələ tələbəlik illərindən şəkil çəkməyə böyük həvəsin var idi. Hara gəzməyə getsək, fotoaparatınla çoxlu şəkillər çəkirdin və bundan zövq alırdın. Eşitdim ki, fotoqraf işləyirsən, çox sevindim. Təbrik edirəm səni, sevdiyin peşə ilə məşğulsan. Elmar, Firdovsi, necədirlər? Onlara da çoxlu salamlarımı çatdır. Elmar Türkiyədə magistraturaya qəbul olunmuşdu. Təhsili necə gedir? Uğurlar arzuladığımı deyərsən. Tuqay, Tural və Abbasın da hərbi xidmətdə olduğunu bilirəm. Allah onları qorusun! Sizin də tez bir zamanda təhsilinizi başa vurub əsgər olmağınızı arzu edirəm. Hərbi fomranın, Azərbaycan əsgəri olmağın fəxrini duymağınızı istəyirəm. Burda insan döyüşçü kimi yetişir. İkinci anamız olan Vətənimizin keşiyində durur. Düşmən qarşısında səninlə çiyin-çiyinə dayanan dostlar qazanırsan. Bu şərəfli yoldan bütün gənclərimiz keçməlidir. Hər bir gəncin formalaşmasında, mərd, qorxmaz, igid, vətənpərvər yetişməsində hərbi xidmətin böyük rolu var. Əsgərlik, həqiqətən də, kişilik məktəbidir. Sizi unutmuram, xatirələrimizi tez-tez yad edir, əsgər yoldaşlarımla bölüşürəm.

Əziz uşaqlıq dostlarım Məmməd, Cövhər, Fariz, sizlər üçün çox darıxmışam. Neynirsiz? Nə işlə məşğulsuz? Məni tanıyan hamıya salamlarımı çatdırın. Yadınıza gəlir bir vaxtlar taxtadan, dəmirdən oyuncaq silahlar düzəldib "tapança-tapança" oynayardıq. Ən sevdiyim oyun idi. İndi isə dostunuzun öz silahı var. Silahımın texniki-takitiki xüsusiyyətlərini dərindən öyrənirəm və ona qulluq etməyi çox sevirəm. Silahım əlimdə Vətənin keşiyində dururam. Məmməd, eşitdim Həcc ziyarətinə getmisən, Allah qəbul eləsin. Əsgərlərimiz üçün də dualar elə həmişə. Fariz Almaniyadan gəlməyib hələ? İşləri qaydasında gedir? Almaniyaya getmək onun uşaqlıqdan istəyi olmuşdu. Danışanda çoxlu salamlarımı deyin.

Sizi yaddan çıxarmaq olar heç! 11 illik sinif yoldaşlarım. Uşaqlıq, yeniyetməlik illərimin ən gözəl anlarını sizinlə keçirmişəm. Çox mehriban sinfimiz var idi. Hamı bir-biri ilə mehriban idi. Məktəbdə müəllimlər bizim sinfin birliyindən danışardı. Xəzər və Tamerlan, sizlə daha yaxın olmuşduq. Birlikdə çox danlanmışıq. Afət müəllimənmiz var idi. Coğrafiya müəlliməsi, onu başqa müəllimlərdən daha çox istəyirdik. Xəzər, sənin məktəb vaxtlarından hərbiyə xüsusi marağın və sevgin var idi. Hal-hazırda hərbçisən. Mən səndəki bu sevgini indi başa düşürəm. Vətənə xidmət etməyin, hərbi qulluqçu olmağın nə qədər şərəfli olduğunu bir daha anlayıram. Məktəbdə öyrəndiyimiz şeirin bir parçası yadıma düşdü:

Vətən mənə oğul desə
nə dərdim?
Mamır olub qayasında
bitərdim.

İndi mən bu şeirdəki misraları daha yaxşı başa düşürəm. Hərbi formanı daşımaqdan sevinc hissi duyuram. Vəzifə borclarımı, döyüş hazırlığı məşğələlərini həvəslə öyrənir, komandirlərimin tapşırıqlarını vaxtında və dəqiq yerinə yetirirəm. Mən Azərbaycan əsgəriyəm! Bu şərəfli ada layiq xidmət etmək üçün çalışıram.

Bütün sinif yoldaşlarıma məndən çoxlu salamlar çatdırın. Özünüzə yaxşı baxın. Cavab məktubunuzu səbirsizliklə gözləyirəm...

**əsgər**
**Şahin SALEHLİ,**
**"N" hərbi hissəsi**

Süleymanov Əlişir Mühibbi oğluna verilmiş müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor müavini**
polkovnik-leytenant
Arif PƏNAHOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
mayor
Bəxtiyar ƏLİYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 1007
Nüsxə 4710